# Milli Məclisin Sədri Sahibə Qafarova Daşkənddə Heydər Əliyev Meydanında olub






**Özbəkistan Respublikasında işgüzar səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti aprelin 4-də Daşkənddə Heydər Əliyev Meydanında olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova və nümayəndə heyətinin üzvləri meydanda ucaldılan Heydər Əliyevin abidəsini ziyarət ediblər, önünə gül dəstələri düzüblər. Qeyd edək ki, 2022-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasına dövlət səfəri zamanı Azərbaycan və Özbəkistan dövlət başçılarının iştirakı ilə Heydər Əliyev Meydanının açılışı olub. Bu meydanın yaradılması dost və qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir.

Daşkəndin Mirabad rayonunda azərbaycanlıların yığcam yaşadıqları ərazidə yerləşən meydanın ətrafındakı binalar abadlaşdırılıb, ərazisi tamamilə yenidən qurulub. Burada yaşıllıq salınıb, sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 5 aprel (№ 65).- S.5.